# Fikrət Sadıq dördlüklərinin sənətkarlıq xüsusiyyətləri

**İlham Məmmədli**
*filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*

**Rəyçilər:** filol.ü.e.d., prof. M.Əliyev,
filol.ü.f.d., dos. Ə.Cabbarlı

**Aşar sözlər:** dördlük, sərbəst şeir, rübai, obraz, poetik ovqat, ictimai-siyasi mühit
**Ключевые слова:** Рубаи, четверостишие, свободный стих, образ, поэтическое настроение, общественно-политическая среда
**Key words:** quafram, free rhyme image, poetic movd, sosial-political enviranment

Çağdaş poeziyamızın üzdə olan nümayəndələrindən Fikrət Sadıq ədəbiyyatımızda daha çox sərbəst vəzndə yazan şair kimi tanınır. Onun şeirlərində klassik poeziyanın daşlaşmış qanunlarına sığmayan üslub və forma sərbəstliyi poetik fikrin ifadə olunmasında da özünü büruzə verir. Rəsul Rza yaradıcılığı ilə ədəbiyyatımızda bir növ vətəndaşlıq hüququ qazanmış sərbəst şeir formasında Fikrət Sadıq da qiymətli poeziya örnəkləri yaratmışdır. Lakin Fikrət Sadıq yaradıcılığı təkcə sərbəst şeirlə məhdudlaşmır. O, poeziyanın digər janr və formalarında da çox sayda bitkin əsərlər yazmışdır. Bu baxımdan şairin yaradıcılığında dördlük şeir formasının da orijinal nümunələrinə rast gəlmək olur. Dördlüyün rübai növünə daha çox üstünlük verən şair klassik şeirin bu şəklində yazmağın çətin bir iş olduğunu yaxşı bildiyindəndir ki, bu yolda öz şair məsuliyyətini dərindən anlayır və məramını da öncədən açıqlayır:

Əsil rübainin öz əruzu var.
Buyursun meydana, kimin sözü var!
Mən – hecaynan yazdım bu dördlükləri,
Bunun da özünəməxsus duzu var (5, səh.25)

Xatırladaq ki, klassik Azərbaycan ədəbiyyatında rübai şeir növü zəngin və uzun bir tarixi inkişaf yolu keçmişdir. Rübainin böyük ustadları kimi ədəbiyyatımızda öz möhürlərini vurmuş Qətran Təbrizi, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Qasım Ənvar və digər klassiklərimiz yaşadıqları dövrün və ictimai-siyasi mühitin tələblərindən asılı olaraq öz rübailərini əsasən ərəb və fars dillərində yazmağa məcbur olmuşlar.

Rübai şeir növü sadə və yığcam olduğundan tez əzbərlənib yadda qaldığı kimi, onun yazılması da bir o qədər çətin, müəllifindən ciddi məsuliyyət tələb edən bir yaradıcılıq prosesidir. Çünki rübai söz əhlindən böyük istedad və yüksək poetik ilham tələb edir. Dörd misradan ibarət olan yığcam bir şeir parçasında şair yalnız poeziyanın daşlaşmış qanun-qaydalarına əməl etməyi gözə almır, həm də az sözlə böyük məna yaratmağı, oxucuda bədii-estetik zövq aşılamaqla yanaşı, yeni söz deməyi qarşıya bir məqsəd kimi qoyur. Bir çox hallarda rübaidə şairin yalnız öz mənəvi-psixoloji aləmi, ətraf mühitə münasibəti, şəxsi ovqatı əks olunduğu kimi, əksər zamanlarda onun dövrün ictimai-siyasi məsələlərinə də böyük ustalıqla müdaxiləsi diqqət çəkir.

Böyük ideallar uğrunda yaşayan əsil söz əhli, əksər vaxtlarda cəmiyyətdən gözlədiyinin əksinin şahidi olduğundandır ki, dünya yaranandan bəri şairlər dövrdən, zəmanədən şikayətçi olmuşlar. Klassik Şərq ədəbiyyatında bu mənəvi-poetik-psixoloji ovqat əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə sanki bir ənənə şəkilində ötürülərək az qala ədəbiyyatın dəyişməz bir qanununa, yaradıcılıq prosesinə çevrilmişdir. İctimai-siyasi mühit qarşısında öz acizliyini görüb heç nəyi dəyişmək gücündə olmadığını dərk edən qələm əhli bu səbəbdəndir ki, cəmiyyətin yaşadığı problemləri öz şəxsi ağrısı kimi yaşayaraq bu acı reallıqları poetik duyumunun imkanı daxilində sözə çevirib təqdim etməyə çalışmışdır. Fikrət Sadıq adı çəkilən klassiklərdən fərqli zəmanənin, ictimai-siyasi epoxanın insanı olmasına baxmayaraq bəzən onun da poeziyasında cəmiyyətə, topluma münasibət sələflərindən, klassik şairlərimizdən çox da fərqlənməmişdir:

Haqq sözümə acı kəlmə dedilər.
Yerli qafiyəmə - gəlmə dedilər.
Bilirəm ki, bildiyimi deyirəm,
Yığışdılar, mənə "bilmə"- dedilər (5, 26)

Şairin, qələm adamının zəmanədən, ictimai mühitdən çəkdiyi ən böyük acılardan biri də öz dövründə nadan və mənəviyyatca kasad insanlar tərəfindən üzləşdiyi müxtəlif təzyiqlərlə bağlı olmuşdur. Çünki çox zaman cəmiyyətdə sözün dəyərini anlamayan hökm sahibləri azad sözü buxovda görmək istədiklərindəndir ki, Ömər Xəyyamdan günümüzəcən əksər şairlər bu cür nadan insanlar tərəfindən hər cür pisliklərlə üzləşməli olmuşlar. Təbii olaraq söz adamının ictimai mühitdən gördüyü bu acı ovqat ilk növbədə onun şeirlərinə sirayət etmişdir. Fikrət Sadıq da müasiri olan belə nadanların tənəsindən poetik imkanı daxilində özünəməxsus ifadələrlə, bədii yanaşmalarla şikayətlənmişdir:

Nadan tənəsindən yanıb kül oldum.
Gil idim, yenə də dönüb gil oldum.
Onlar gül içində tikan oldular,
Mən tikan içində bitib, gül oldum (5, 26)

Rübailərində daha çox pessimist ruhun, kədərli notların üstünlük təşkil etməsinə baxmayaraq, bu ovqat Fikrət Sadıq yaradıcılığında aparıcı xətt təşkil etmir. Onun yaradıcılığındakı bu dissident ovqatı da daim hesab etmək düzgün yanaşma olmazdı. Şairin həyat və yaradıcılığının böyük hissəsi sovet hakimiyyəti illərinə təsadüf etdiyindən təbii ki, onun da yaradıcılığında dövrün tələblərindən, ictimai-siyasi mühitin diktəsindən doğan əhval-ruhiyyə, poetik ovqat uzun illər aparıcı yer tutmuşdur. O da sosialist realizmi prinsipləri çərçivəsində, siyasi-ideoloji zəminə söykənən əsərlər yazmış, bir növ sovet gerçəkliyinin təbliğatçılarından olmuşdur. Lakin Fikrət Sadıq sözün əbədi missiyasını dərindən dərk etdiyi üçün bütün məqamlarda öz sözünü birbaşa, açıq mətnlə deməyi də bacarmışdır.

Köhnə sovet sistem dağılandan sonra Fikrət Sadığın da qəlbində milli dövlətçilik, özgürlük kimi milli qürur hissləri daha da güclənmiş, bu amillər onun dünyagörüşündə və yaradıcılığında yeni çalarlarla özünü büruzə vermişdir.

Azərbaycanın öz dövlət müstəqilliyinə qovuşması şairin qəlbində ümid işığı yandırmış, millətin xoşbəxt sabahına inam hissi oyatmışdır. Lakin müstəqilliyin ilk illərində ölkənin yaşadığı siyasi təlatümlər, torpaqlarımızın erməni-rus işğalçıları tərəfindən yağmalanması

şairdə ağır sarsıntılara səbəb olmuş, bu pessimist əhval-ruhiyyə onun şeirlərinə də hopmuşdur. Biz bu acı ovqatın gətirdiyi milli ağrıları şairin rübailərində daha çox hiss edirik:

Mehri az, qılığı dardır dünyanın.
Daş olmuş ürəyi kardır dünyanın.
Bir gözü sevincdən, bir gözü qəmdən
Ömür tərəzisi vardır dünyanın (5, 27)

Bu gün dünyanın düşünən başları, bəşəriyyətin sabahından narahat olan müdrik adamları dünyanın və bəşəriyyətin xilas yolunun insan amilindən keçdiyini dönə-dönə bəyan edirlər. Eyni zamanda iqtisadiyyatın da sağlamlaşmasında bu amilin önə çəkilməsini yeganə xilas yolu kimi göstərirlər. Təəssüf ki, bunun qarşılığında böyük güclər, dünyanın siyasi xəritəsini yenidən cızmaq iddiasında olan söz sahibləri xalqın boğazından kəsdikləri milyonları dəhşətli qırğın silahlarına, müharibələrə, hətta süni canlılar yaratmağa yönəltdiyi bir zamanda, insanlığın artıq sonu görünməyən dəhşətli bir uçurumun kənarında dayandığını unudurlar. İnsanın dəyərdən düşdüyü, hər şeyin süniliyə yuvarlandığı dəhşətli reallıq Fikrət Sadığı haqlı olaraq narahat edir və şair insanlığı gözləyən faciələrdən təşvişə düşür:

İnsanın insanlıq qədri-azalıb.
Otların, güllərin ətri azalıb.
Ölmədim bunu da görüdüm, ay dadaş!
Süni-çoxalıbdır, fitri-azalıb (5, 30)

Fikrət Sadıq rübai yaradıcılığında mürəkkəb bədii detallardan, qarışıq süjet və kompozisiyalardan, çətin başa düşülən terminologiyadan istifadə etmir. Bəlağətli deyimlərə, pafoslu ifadələrə, bər-bəzəkli epitetlərə də onun dördlüklərində təsadüf edilmir. Bunun qarşılığında isə onun yaradıcılığında sadə obrazlar, hər gün üzləşdiyimiz həyat hadisələri, insanların yaşadıqları gündəlik qayğılar sadə xalq dilində öz əksini tapır:

Bizi imtahana çəkdi zəlzələ,
Dost-düşmən, qohum-yad verdik əl-ələ.
Bizə mehribanlıq öyrətdi qorxu,
Həm ev-evə sığdı, həm də el-elə (5, 31)

Fikrət Sadıq rübailərində əxlaqi-mənəvi məsələlərə böyük diqqətlə, bir vətəndaş yanğısı ilə yanaşır. Ucuz şouların, saxta din təbliğatçılarının, çirkin qəlbli insanların birgəyaşayışımıza vurduqları sağalmaz yaralardan narahatlığını yadımıza salır. Bu zaman ütülü sözlərdən, ritorik deyimlərdən də istifadə etmir. Sözü birbaşa, orta hazırlıqlı azərbaycanlı oxucunun gündəlik danışıq dili ilə, eyni zamanda poetik üslubda deməyi bacarır:

Qeyri-ciddi, şou-efir çoxalıb.
Üzü gözəl, qəlbi kifir çoxalıb.
Sovet vaxtı dindar idik daha çox,
Din qayıdıb, amma kafir çoxalıb (5, 36)

Fikrət Sadıq rübailərində Vətən sevgisi, yurd təəssübü bədii sözün gücü ilə yaddaşımıza

hopur, onu korşalmağa qoymur. Bu zaman tarixi keçmişimizin şanlı səhifələrindən yaratdığı bədii səhnələrlə kimliyimizi bir daha yadımıza salır:

Bir əsgər anası, məğrur Türk-ana
Bir gün məktub yazdı əsgər oğluna.
"Vətənçin qurbanlıq böyütdüm səni,
Başındakı xına buna nişana" (5, 46)

Həcminin məhdudluğuna və yığcamlığına baxmayaraq Fikrət Sadıq şeirin dördlük formasında da az sözlə böyük məna yaratmağın mümkünlüyünü təsdiq etməklə özünü əsil söz adamı kimi təsdiq edə bilmişdir.

**Məqalənin aktuallığı.** Məqalə müasir poeziyamızın inkişaf istiqamətlərinin, onun yararlandığı tarixi ənənələrin öyrənilməsi baxımından aktualdır.

**Məqalənin elmi yeniliyi.** Daha çox sərbəst janrda şeir yazan Fikrət Sadığın heca janrında, xüsusilə dördlük formasında yazdığı şeirlər ilk dəfə elmi-nəzəri baxımından təhlilə cəlb edilərək qiymətləndirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Müasir poeziyamızın, xüsusilə Fikrət Sadıq irsinin araşdırılmasında istifadə oluna bilər.

## Ədəbiyyat

1. Abid Ə. Heca vəzninin tarixi. "Maarif işçisi" jurnalı. Bakı, 1927, №3,4,6,7.
2. Ağayev Ə. Poeziyada sənətkarlıq məsələləri. "Ədəbiyyat və incəsənət", 1953, №31-36.
3. Axundov A. Şeir sənəti və dil. Bakı, 1980.
4. Əlyev M. Azərbaycan şeir sənəti. Bakı, 2000.
5. Sadıq F. Bugünnamə - 3. Bakı, "Elm və təhsil, 2010.

**И. Маммадли**

## Особенности профессионализма четверостишия Фикрета Садыга

## Резюме

В статье анализу подвергаются научному творчество четверостишия (Рубаи) одного из видных представителей современной азербайджанской поэзии, созданные Фикретом Садыгом. Говорится о художественно-эстетических достоинствах его стихов, раскрывается духовный мир образов. Подчеркивается роль, указывается на место, занимаемое поэтом в современной азербайджанской поэзии.

**İ. Mammadli**

## The fiatures of Fikrat Sadıgs poetry

## Summary

The paper deals with the analysis of the quatrams by Fikrat Sadıq, one of the popular representatives of our modern literature. The artistes – aesthetic pernliarities and word of images these verses are estimated. His position in our poetry is elucidated.